Elm .- 2025.- 12 dekabr (№40).- S.7.

# Şərqşünas alimə TÜRKSOY-un medalı təqdim edilib

**AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Türk filologiyası şöbəsinin baş elmi işçisi, Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, filologiya elmləri doktoru Elman Quliyev Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) medalı ilə təltif edilib.**




Medal şərqşünas alimə onun "Türk xalqları ədəbiyyatı" kitabının TÜRKSOY Baş Katibliyində keçirilən təqdimat tədbirində təqdim edilib.

Təqdimat mərasimində TÜRKSOY-un Baş Katibi Sultan Raev, Türk Dil Qurumunun sabiq rəhbəri professor Şükrü Haluk Akalın, alimlər, yazıçılar, diplomatlar və Türk Dünyasının müxtəlif bölgələrindən nümayəndələr iştirak edib.

Professor Elman Quliyevin bu irihəcmli kitabı türkdilli xalqların ədəbi mirasını tarix boyu formalaşan vahid bir sistem kimi nəzərdən keçirən qabaqcıl bir araşdırmadır.

Tədbirin açılışında çıxış edən TÜRKSOY-un Baş katibi Sultan Raev, kitabın Türk xalqları üçün əhəmiyyətini vurğulayıb. Professor Şükrü Haluk Akalın çıxışında kitabın nəşrinin xüsusi bir dövrə təsadüf etdiyini bildirərək, UNESCO-nun 15 dekabrı "Dünya Türk Dili Ailəsi Günü" elan etməsinə və 2026-cı ildə Bakıda keçiriləcək Birinci Türkologiya Qurultayının 100 illiyinə diqqəti çəkib.

Professor Elman Quliyev isə çıxışında 30 ildən çox araşdırma təcrübəsinə söykənən bu kitabın Türk Dünyasının ədəbi mənzərəsini vahid şəkildə anlamağa kömək edəcəyinə ümid etdiyini söyləyib.

Tədbirin sonunda Türk Dünyasının mədəniyyət və ədəbiyyatına verdiyi dəyərli töhfələrə görə professor Elman Quliyevə TÜRKSOY medalı təqdim olunub.